# Azərbaycan Respublikası Gömrük Məcəlləsinin tətbiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar həmin Məcəllənin tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

- qüvvədə olan qanunvericilik aktlarının Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğunlaşdırılması haqqında təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Məcəlləyə uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının prezidentinə məlumat versin;
- öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Gömrük Məcəlləsindən irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- Gömrük Məcəlləsinin 7-ci maddəsinin 2-ci və 4-cü hissələrində, 26-cı maddəsində, 414-cü maddəsinin 5-ci hissəsində nəzərdə tutulan «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının prezidenti həyata keçirir;
- Gömrük Məcəlləsinin 33-cü maddəsinin 3-cü hissəsində, 36-cı maddəsinin 1-ci hissəsində, *44-cü maddəsinin 2-ci hissəsində və 53-cü maddəsinin 2-ci hissəsində*, 56-cı maddəsinin 7-ci hissəsində, 59-cu maddəsinin 1-ci hissəsində, 68-ci maddəsinin 2-ci hissəsində, 71-ci maddəsinin 1-ci hissəsində, 75-ci maddəsinin 2-ci hissəsində, *76-cı maddəsinin 2-ci hissəsində*, 77-ci maddəsinin 2-ci və 4-cü hissələrində, 89-cu maddəsinin 3-cü hissəsində, 92-ci maddəsində, 100-cü maddəsinin 3-cü hissəsində, 107-ci maddəsinin 1-ci hissəsində, ~~120-ci maddəsinin 6-cı hissəsində,~~ *123-cü maddəsinin 7-ci hissəsində, 145-ci maddəsinin 2-ci hissəsində*, 155-ci maddəsinin 2-ci hissəsində, 156-cı maddəsinin 2-ci hissəsində, ~~160-cı maddəsinin 1-ci hissəsində, 163-cü maddəsinin 9-cu hissəsində,~~ 212-ci maddəsinin 2-ci hissəsində, 398-ci maddəsinin 2-ci hissəsində, 414-cü maddəsinin 6-cı hissəsində, 419-cu maddəsinin 4-cü hissəsində, 420-ci maddəsinin 2-ci hissəsində, 428-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulan «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;
- Gömrük Məcəlləsində nəzərdə tutulmuş «Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir;

- Gömrük Məcəlləsinin 58-ci maddəsinin 2-ci hissəsində, 61-ci maddəsinin 2-ci hissəsində, 87-ci maddəsinin 2-ci hissəsində, 88-ci maddəsinin 4-cü abzasında, 91-ci maddəsinin 2-ci hissəsində, *99-cu maddəsinin 2-ci hissəsində* nəzərdə tutulan «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının *İqtisadi İnkişaf Nazirliyi* həyata keçirir;
- Gömrük Məcəlləsinin 94-cü maddəsinin 2-ci hissəsində, 107-ci maddəsinin 3-cü hissəsində, ~~113, 114-cü maddələrində,~~ 123-cü maddəsinin 3-cü hissəsində, 386-cı maddəsində, 387-ci maddəsinin 2-ci hissəsində, 389-cu maddəsinin 3-cü hissəsində, 392-ci maddəsinin 2-ci hissəsində, 393-cü maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;
- ~~Gömrük Məcəlləsinin 99-cu maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ticarət Nazirliyi həyata keçirir;~~
- Gömrük Məcəlləsinin 118-ci maddəsində nəzərdə tutulan «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və *Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi* həyata keçirirlər;
- Gömrük Məcəlləsinin 183-cü maddəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikası prezidentinin 1996-cı il 17 iyun tarixli 463 nömrəli «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» Fərmanında göstərilən orqanlar həyata keçirirlər*;*
- *Gömrük Məcəlləsinin 113-cü, 114-cü maddələrində, 120-ci maddəsinin 6-cı hissəsində və 160-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir.*

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 25 iyul 1997-ci il***

***№ 616***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (27 iyul 1997-ci il, № 158) ( «VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 1997-ci il, № 6, maddə 448) («VneshExpertService» LLC).***

***11 oktyabr 2001-ci il tarixli, 587 nömrəli; 19 iyul 2004-cü il tarixli, 87 nömrəli; 7 fevral 2005-ci il tarixli, 193 nömrəli; 14 iyun 2007-ci il tarixli, 588 nömrəli fərmanlara əsasən dəyişikliklər və əlavələrlə («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*